**Kafedranın təşkilatçılığı ilə 2023/2024-cü tədris ilində keçirilmiş elmi konfranslar, seminarlar, simpoziumlar, dəyirmi masalar və tədbirlər haqqında**

**1.Zəfər yolumuzun Anım məqamı – 27 sentyabr**

2024-cü ilin 27 sentyabr tarixində Mingəçevir Dövlət Universitetində "Zəfər yolumuzun Anım məqamı – 27 sentyabr" mövzusunda mühazirə təşkil olunub. Mühazirə 27 sentyabr – Anım Günü münasibətilə keçirilib və tədbir Azərbaycan xalqının qəhrəmanlıq tarixi, Vətən müharibəsində qazanılan böyük zəfər və torpaqlarımızın işğaldan azad olunması prosesinə həsr edilib. MDU-nun Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə keçirilən tədbir şəhidlərin ruhunun bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Kafedra müdiri Esmira Cəfərova açılış nitqi ilə çıxış edərək bu günün tarixi əhəmiyyətindən danışıb, 44 günlük Vətən müharibəsində qəhrəmanlıqla döyüşən Azərbaycan Ordusunun göstərdiyi şücaət haqqında geniş məlumat verib. O, həmçinin qeyd edib ki, 27 sentyabr tarixi Azərbaycan xalqı üçün təkcə Anım Günü deyil, həm də böyük zəfərimizin başlanğıcıdır.

Ardınca MDU-nun baş müəllimi İlham Məmmədov məruzə ilə çıxış edib. O, müharibə dövründə baş verən əsas hadisələr, şəhid və qazilərimizin qəhrəmanlıqları, eləcə də Azərbaycanın beynəlxalq aləmdə qazandığı mövqeyi barədə geniş məlumat verib, xalqın birlik və həmrəyliyi, müharibə zamanı göstərilən yüksək mənəvi dəyərlər haqqında danışıb.

Tədbirdə iştirak edən universitetin müəllim heyəti və tələbələri fəal şəkildə müzakirələrə qatılıb, suallar verib və müharibə ilə bağlı müxtəlif aspektləri öyrəniblər. Mühazirədə Azərbaycan xalqının bu zəfəri necə qazandığı, hərbi-siyasi amillər, beynəlxalq münasibətlər və Qarabağın gələcək inkişaf perspektivləri barədə də dərin təhlillər aparılıb.

Tədbirin sonunda iştirakçılar Vətən müharibəsinin hər bir Azərbaycan vətəndaşının qəlbində əbədi yaşayacağını və bu qəhrəmanlıq tarixinin gələcək nəsillərə ötürülməsinin vacibliyini vurğulayıblar. Mühazirə böyük maraqla qarşılanıb və Anım Günü ilə bağlı universitetdə gələcək tədbirlərin davam etdiriləcəyinə dair çağırışla yekunlaşıb.





**2.Mingəçevir Dövlət Universitetində Anım Günü ilə əlaqədar dəyirmi masa keçirilib.**

26 sentyabr 2024-cü ildə Mingəçevir Dövlət Universitetində 27 sentyabr “Anım Günü”nə həsr olunmuş “Şərəf və Zəfər tarixi – 27 sentyabr” mövzusunda dəyirmi masa keçirilib. MDU-nun professor-müəllim heyəti, tələbə və magistrantlarının iştirak etdiyi tədbir şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etməklə başlayıb.

MDU-nun Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərova giriş nitqi ilə çıxış edərək, əvvəlcə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olan bütün şəhidlərimizə rəhmət diləyib, qazilərimizə şəfa arzulayıb. Bildirib ki, 2020-ci ildə başlanan və Azərbaycanın qələbəsi ilə nəticələnən Vətən müharibəsinin ilk gününü əbədiləşdirmək məqsədilə hər il 27 sentyabr tarixi ölkəmizdə “Anım Günü” kimi qeyd olunur.

Tədbirdə iştirak edən MDU-nun Elm və innovasiyalar şöbəsinin müdiri Vüqar Mustafayev dəyirmi masanın təşkilində əməyi olan hər kəsə minnətdarlığını bildirib. Vurğulayıb ki, bu əlamətdar günün yüksək səviyyədə təşkil edilməsi şəhidlərimizin qəhrəmanlıq dastanını yaşatmaq, onların xatirəsini anmaq və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda göstərdikləri fədakarlığı yenidən xatırlatmaq üçün böyük əhəmiyyət daşıyır. Belə ki, “Anım Günü” təkcə keçmişə hörmət və şəhidlərin xatirəsini yad etməklə məhdudlaşmır, eyni zamanda gələcək nəsillərə də önəmli mesajlar ötürür. Ardınca Vətən müharibəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Sonra konfransın proqramına uyğun olaraq MDU tələbələrinin məruzələri dinlənilib. Sədiqə Sadıqova “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi”, Vəfa Məmmədova “27 sentyabr Azərbaycan xalqının zəfər tarixidir!”, Sübhanə Abuşova “Böyük Qələbəyə qanları ilə imza atan şəhidlər və qazilər müqəddəs and yerimizdir”, Günay Hacıyeva “Müqəddəs ziyarətgahımız Mingəçevir Şəhidlər Xiyabanı”, Fatimə Əliyeva “Mingəçevir Dövlət Universitetinin şəhid məzunları”, Aytən Mirzəliyeva “Eyni gündə şəhadət şərbətini içən qardaşlar: Əli və İslam Əhmədovlar”, Aysel İsmayılova “Ömrü dastana dönən Musa və Tural Həsənovlar”, Nərmin Abışova “Şəhidini və qazisini yüksək tutan millət və dövlət yenilməz!” adlı mövzularla çıxış edərək, Vətən müharibəsi şəhidlərinin xatirəsinin əbədi olaraq Azərbaycan xalqının qəlbində yaşayacağını ifadə ediblər və Anım Gününün gənclərə vətənə bağlılıq və qürur hissi aşıladığını vurğulayıblar.





### 3.Mingəçevir Dövlət Universitetində Anım Günü qeyd edilib

25 sentyabr 2024-cü ildə Mingəçevir Dövlət Universitetində 27 sentyabr "Anım Günü"nə həsr olunmuş "Zəfərə aparan Vətən müharibəsinin başlandığı gün" mövzusunda elmi-praktik konfrans keçirilib. Tədbir şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etməklə başlayıb. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

MDU-nun rektor vəzifəsini müvəqqəti icra edən, Tədris məsələləri üzrə prorektoru Üzeyir Zeynalov giriş nitqi ilə çıxış edərək, 27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsinin Azərbaycanın tarixində dönüş nöqtəsi kimi qeyd olunduğunu bildirib və 44 günlük Vətən müharibəsi zamanı qəhrəmanlıq göstərmiş Azərbaycan Ordusunun şücaətindən danışıb.

Vətən müharibəsinə həsr olunmuş videoçarxın nümayişindən sonra konfransın proqramına uyğun olaraq MDU əməkdaşlarının məruzələri dinlənilib. Tarix üzrə fəlsəfə doktoru Aygün Qədirova "27 sentyabr Azərbaycan xalqının Qürur və Zəfər tarixidir", riyaziyyat üzrə fəlsəfə doktoru Rövşən Babayev "Zəfər yolumuzun Anım məqamı – 27 sentyabr", Tələbə Vətənpərvərlik İnkişaf Mərkəzinin koordinatoru Minayə Hüseynova "Zəfər zirvəsini fəth edən qəhrəman şəhidlərimiz əbədi yaşayacaq", filologiya üzrə fəlsəfə doktoru Ayna Babazadə "Azərbaycan xalqının mübarizə və qəhrəmanlıq tarixi ədəbiyyatımızda" adlı mövzularda çıxışlar ediblər.

Şəhid ailə üzvləri Azadə Abdullayeva və İldırım Cüməzadə konfransın təşkil edilməsində əməyi olan hər kəsə, o cümlədədn bütün MDU ailəsinə təşəkkürlərini bildiriblər. Çıxış edənlər 27 sentyabr Anım Gününün Azərbaycan xalqı üçün böyük önəm daşıdığını vurğulayaraq, onların şəhid övladlarının timsalında bütün şəhidlərimizin daim sevgi və sayğı ilə yad edildiyini bildiriblər.








**4.Mingəçevir Dövlət Universitetində Müstəqilliyin Bərpası Gününə həsr olunmuş elmi-nəzəri konfrans keçirilib.**

18 oktyabr 2024-cü il tarixində Müstəqilliyin Bərpası Gününə həsr olunmuş elmi-nəzəri konfransda şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Tədbiridə Təhsil fakültəsinin dekanı, dosent Nizami Zeynalov çıxış edərək "Azərbaycan Müstəqilliyinin dünəni və bu günü" mövzusunda ətraflı danışıb. Nizami Zeynalov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin apardığı haqq savaşının müstəqilliyimizin daha da möhkəmləndirilməsinə və əbədi olaraq təsdiqlənməsinə xidmət etdiyini qeyd edib. Elm və İnnovasiyalar şöbəsinin müdiri, dosent Vüqar Mustafayev isə müstəqillik illərində elmi və innovativ inkişafın Azərbaycan üçün əhəmiyyətindən bəhs edərək, gənclərin elmi tədqiqatlara marağının artırılması üçün universitetdə görülən işlərdən danışıb.

Daha sonra Humanitar fənlət kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Aygün Qədirova "Müstəqilliyimiz bu gün: reallıqlar və perspektivlər" mövzusunda geniş məruzə ilə çıxış edib. A. Qədirova çıxışında Azərbaycanın müstəqillik mübarizəsi, 1991-ci ildə dövlət müstəqilliyinin bərpası və bu prosesin xalqımız üçün tarixi əhəmiyyətini diqqətə çatdırıb.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan müstəqilliyinin qorunub saxlanılması və dövlət quruculuğu sahəsində gördüyü işlərdən bəhs edərək, müasir dövrdə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin əldə etdiyi uğurları xüsusi vurğulayıb. A. Qədirova çıxışında Qarabağ Zəfərinin Azərbaycanın müstəqillik tarixində müstəsna yer tutduğunu qeyd edib və gələcəkdə ölkəmizin qarşısında duran əsas perspektivlərdən bəhs edib.

Konfrans zamanı, müstəqillik mövzusunda hazırlanan videoçarx nümayiş olunub və iştirakçılar arasında mövzu ilə bağlı geniş müzakirələr aparılıb. Tədbir Azərbaycanın müstəqilliyinin əbədiliyini və gələcək nəsillərə ötürülməsinin əhəmiyyətini vurğulayan fikirlərlə yekunlaşıb.



**5.MDU-da “Milli mədəni irsimiz, milli dəyərlərimiz” adlı tədbir keçirilib**

2024-ci ilin 20 noyabr tarixində Mingəçevir Dövlət Universiteti Humanitar fənlər kafedrasının və Milli Azərbaycan Tarixi Muzeyinin birgə təşkilatçılığı ilə “Milli mədəni irsimiz, milli dəyərlərimiz” adlı tədbir keçirilib. Tədbirdə hər iki tərəfdən professor müəllim heyəti və tələbələr iştirak ediblər. “Zoom” platforması üzərindən onlayn formatda təşkil edilən tədbirə Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının baş müəllimi, t.ü.f.d Aygün Qədirova moderatorluq edib. Tədbirdə MDU-nun Təhsil fakultəsinin dekanı dosent Nizami Zeynalov və Etnoqrafiya elmi fond şöbəsinin müdiri dosent Gülzadə Sərxan qızı Abdulova çıxış ediblər. Tədbirin proqramına uyğun olaraq dosent Gülzadə Abdulova “Azərbaycan milli baş geyimləri”, muzeyin elmi işçiləri Fəridə Xəlilova “Azərbaycan məişətində güləbətin tikmələri”, Fatma Qəniyeva “Azərbaycan çay mədəniyyəti” və Nurəngiz Qarayeva “Azərbaycan hamam mədəniyyəti” mövzularında məruzələrlə çıxış ediblər. Müzakirələrlə davam edən tədbir zamanı iştirakçılar belə bir ortaq tədbirin keçirilməsində göstərdikləri dəstəyə görə hər iki müəssisəsinin rəhbərliyinə təşəkkürünü bildirib və bu istiqamətdə birgə fəaliyyətin davamlı olmasını arzulayıblar.







**6. MDU-da Milli Dirçəliş Gününə həsr edilmiş “Azərbaycan xalqının azadlıq mübarizəsi tarixinin şanlı səhifəsi” mövzusunda dəyirmi masa keçirilib.**

Universitetin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə keçirilən dəyirmi masada MDU-nun bir qrup professor-müəllim heyəti üzvləri, Təhsil fakültəsinin tələbə və magistrantları iştirak edib. İlk növbədə, illərdir işğal altında olan torpaqlarımızın Zəfər sevincini xalqımıza yaşadan, Azərbaycanımızın igid və qəhrəman şəhidlərinin ruhunu bir dəqiqəlik sükutla yad edilib.

Açılış nitqi ilə çıxış edən MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova qeyd edib ki, 17 noyabr Azərbaycan xalqının istiqlal mücadiləsinin mühüm mərhələsini təşkil edir. 1988-ci il noyabrın 17-də Azərbaycan xalqı Bakının Azadlıq meydanına toplaşaraq SSRİ-nin Dağlıq Qarabağla bağlı siyasətinə qarşı kütləvi etiraz aksiyalarına başladı. Bu nümayişlər Azərbaycan xalqının milli birliyini və müstəqillik arzusunu ifadə edirdi. Həmin dövrdə, Sovet İttifaqının repressiv siyasətinə baxmayaraq, xalq böyük cəsarət göstərərək meydanlara çıxmış və öz haqlarını tələb etmişdi. Bu hadisələr nəticəsində milli dirçəliş hərəkatı gücləndi və Azərbaycanın müstəqilliyə gedən

yolu üçün mühüm bir başlanğıc nöqtəsinə çevrildi. 1991-ci ildə isə Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdi.

Açılış nitqindən sonra Milli Dirçəliş Gününə həsr olunmuş videoçarx nümayiş etidirilib. Sonra Humanitar fənlər kafedrasının müəllimi Leyla Babayeva "Azərbaycan xalqının azadlıq mübarizəsi tarixinin şanlı səhifəsi" mövzusunda çıxış edib. Sonda dəyirmi masa iştirakçıları ilə mövzu ətrafında müzakirələr aparılıb.







**7.MDU-da "ZƏFƏR Günü"nə həsr olunan dəyirmi masa keçirilib**

2024-cü il noyabrın 6-da Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə "ZƏFƏR Günü"nə həsr olunan "Zəfərin zirvəsinə aparan qəhrəmanlıq salnaməsi" mövzusunda dəyirmi masa keçirilib. İlk növbədə, torpaqlarımızın azadlığı uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış nitqi ilə çıxış edən MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova qeyd edib ki, bir neçə gündən sonra xalqımız şərəfli tarixini – Zəfər gününü qeyd edəcək. Dünyaya, düşmənə məğrur və yenilməz xalq olduğunu sübut edən, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində formalaşdırdığı silahlı qüvvələr darmadağın edilərək işğala son qoyuldu. Döyüşdən qorxub qaçan erməni silahlılarının Azərbaycan əsgəri qarşısında məğlub olduğunu bütün dünya

gördü. Müzəffər Ali Baş Komandanın əmri ilə Azərbaycan əsgəri düşmənin işğal edilmiş ərazilərdə 30 il müddətində tikdiyi istehkamları yarır, qurduğu pusquları dağıdır və hədəfə yaxınlaşırdı. Əks-hücum əməliyyatında ordumuzun qarşısında duran əsas tapşırıq çətin relyef və iqlim şəraitində mütəşəkkil qaydada irəliləmək və işğal altında olan torpaqlarımızı cinayətkar ordu qruplaşmalarından xilas etmək idi və etdi də. Noyabr ayının 8-də Şuşa şəhəri azad edildi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı. "Dəmir yumruğ"un gücünə imzalanan bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Biz böyük ZƏFƏRİ əldə etdik.

Açılış nitqindən sonra Zəfər Gününə həsr olunmuş videoçarx nümayiş etidirilib. MDU-nun Təhsil fakültəsinin Tarix müəllimliyi ixtisasının tələbələrindən M.Qarayeva, A.Quliyeva, X.Məmmədli, T.Şıxməmmədova, S.Sadıqova, D.Cəfərli, S.Mehdiyev, A.Quluzadə, A.Quliyev, N. Soltanzadə, F.Qəhramanlı, X.Şərifov, A.Mirzəyeva, S.Musayev və V.Məmmədova çıxışlarında XX əsrin axırlarından etibarən Azərbaycanda baş verən hadisələri xronoloji ardıcıllıqla şərh etdilər. Tələbələrin çıxışları maraqla qarşılanıb, müzakirələr aparılıb. Sonda dəyirmi masa iştirakçılarına daha bir videoçarx təqdim olunub.




**8.Mingəçevir Dövlət Universitetində (MDU) "8 Noyabr – Zəfər Günü"nə həsr olunmuş "Azərbaycan tarixinin Zəfər zirvəsi" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir.**

2024-cü ilin noyabrın 5-də Mingəçevir Dövlət Universiteti, YAP Mingəçevir şəhər təşkilatı və Mingəçevir Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "8 Noyabr – Zəfər Günü"nə həsr olunmuş "Azərbaycan tarixinin Zəfər zirvəsi" mövzusunda elmi-praktiki konfrans keçirilib. Əvvəlcə tədbirdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən qəhrəman şəhidlərimizin unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirin açılışında MDU-nun rektor v.m.i.e. Üzeyir Zeynalov çıxış edib. Şanlı qalibiyyətin dördüncü ildönümünün ölkəmizdə böyük təntənə və coşqu ilə qeyd edildiyini bildirən Ü.Zeynalov birliyimizin və milli iradəmizin rəmzi kimi Azərbaycan tarixinə qızıl

hərflərlə əbədi həkk olunmuş 8 Noyabr – Zəfər Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib.

Zəfər Günü münasibətilə təbriklərini çatdıran Azərbaycan Silahlı Qüvvələrinin Polkovniki, Vətən Müharibəsi Qəhrəmanı, “N” saylı hərbi hissənin komandiri Elnur Qebedov əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində doğma torpaqlarımızın işğaldan azad olunmasından və tarixi ədalətin bərpa edilməsindən bəhs edib. Təhsil müəssisələrində vətənpərvərlik mövzusunda tədbirlərin önəmindən danışan YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev Zəfər günün tarixi əhəmiyyətindən danışaraq bildirmişdir ki, tarixi qələbəyə gedən yolun əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Daha sonra, Zəfər Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib və məruzələr dinlənilib. MDU-nun Mexanika kafedrasının müəllimi, müharibə veteranı Qaragöz Kərimov “Zəfərin zirvəsinə aparan qəhrəmanlıq səlnaməsi”, MDU-nun Xarici dillər kafedra müdiri, dosent Mehdi Rəhimov “Tariximizin əbədi qürur dastanı”, Humanitar fənlər kafedrasının baş müəllimi, fil.f.d. Günel Yunusova “Zəfər tariximiz ədəbiyyatımızda əbədiləşir”, MDU-nun baş müəllimi, t.ü.f.d. Vüsalə Mövlayeva “Böyük Zəfərimiz müasir tariximizin ən şanlı hadisəsidir” mövzusunda çıxış ediblər.







**9.MDU-da Zəfər Gününə həsr olunan mühazirə keçirilib.**

2024-cü ilin noyabr ayının 4-də Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə “Milli istiqlalımızı bərqərar etmiş şanlı tarix” mövzusunda mühazirə keçirilib. Universitetin kiçik akt zalında keçirilən mühazirədə MDU-nun bir qrup professor-müəllim heyəti üzvü, tələbə və magistrantlar iştirak edib. Mühazirədə giriş sözü ilə çıxış edən MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyərək, şəhidlərin müqəddəs ruhu və şəhid analarının, şəhid ailə üzvlərinin qarşısında ehtiramla baş əyərək salamladı. Bu günlərdə böyük təntənə ilə qeyd etdiyimiz Zəfər Gününün ildönümü münasibəti ilə “Zəfərimiz mübarək!”- dedi.

Sonra, Humanitar fənlər kafedrasının baş müəllimi İlham Məmmədov məruzə ilə çıxış edib. Məruzədə tarixən zaman-zaman torpaqlarımızın Ermənistan tərəfindən zəbt

edilməsindən, bir milyondan çox azərbaycanlının öz dədə-baba yurdundan didərgin salınmasından, qaçqın-köçkün həyatı yaşamaq məcburiyyətində qoyulmasından və bütün bunların sivil dünyanın gözü qarşısında baş verməsindən, dövlətlərin ərazi bütövlüyünün pozulmasının yolverilməzliyi ilə bağlı beynəlxalq konvensiyaların kobud şəkildə tapdalanmasından, həmin sənədləri qəbul edən təşkilatların susqunluq, laqeydlik, biganəlik nümayiş etdirmələrindən ermənilərin əsassız torpaq iddialarından və təcavüzkarlıq siyasətlərindən, erməni terrorçuluğu və vandalizminin faciəvi nəticələrindən, 44 günlük Vətən müharibəsindən, Prezident İlham Əliyevin beynəlxalq hüquqa söykənərək vasitəçilərin təmin edə bilmədiyi ədaləti müharibədə Ermənistanı məğlub edərək bərpa etməsindən, tarixi Zəfərin qazanılmasını şərtləndirən digər əsas amillərdən, post-müharibə dövründə regionda yaranan yeni geosiyasi reallıqlardan, Böyük Qayıdış proqramından, Qarabağda 24 saatdan az bir müddətdə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam təmin olunmasından və digər məsələlərdən bəhs edilib.







**10.Mingəçevir Dövlət Universitetində “Beş Məktub” kitabının təqdimatı keçirilib.**

Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Əfqan Dönməz və Rəvanə Nəsibovanın həmmüəllif olduqları “Beş Məktub” kitabının təqdimat mərasimi keçirilib.Tədbir universitetin Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərovanın giriş sözü ilə açılıb. Təqdimat zamanı kitab müəllifləri Əfqan Dönməz və Rəvanə Nəsibova öz təəssüratlarını bölüşüblər. Kitabın redaktoru, filologiya üzrə fəlsəfə doktoru Günel Yunusova isə əsərin məziyyətlərindən və onun gənclər üçün əhəmiyyətindən bəhs edib.

Təqdimatın digər məruzəçiləri, filologiya üzrə fəlsəfə doktoru Pərvin Hüseynova “Beş Məktub” kitabı haqqında dərin düşüncələrini paylaşıb. Həmçinin, tələbələr Bəyim

Sadıqzadə, Rəvan Abdullayev və Nurlana Abdullayeva kitabın müxtəlif məqamlarını öz baxış bucağından təqdim ediblər.

Tədbirin sonunda geniş müzakirələr aparılıb. Tədbir iştirakçıları kitabın gənc nəsildə maarifləndirici təsir gücünə malik olduğunu vurğulayıblar. Bu cür təşəbbüslər Mingəçevir Dövlət Universitetində kitab oxuma mədəniyyətinin təşviqinə və gənclərin intellektual inkişafına töhfə verir.





**11.Mingəçevir Dövlət Universitetində (MDU) Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunan “Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir” mövzusunda elmi-praktiki konfrans keçirilib**

10 dekabr 2024-cü il tarixində Mingəçevir Dövlət Universitetində Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunan “ Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir” mövzusunda elmi-praktiki konfrans keçirilib.

Tədbiri giriş sözü ilə açan MDU-nun rektoru v.m.i.e., Üzeyir Zeynalov Ulu Öndər Heydər Əliyevin Azərbaycanın dövlət quruculuğu, iqtisadiyyat, siyasət və mədəniyyət sahələrindəki böyük xidmətlərini qeyd edərək, Azərbaycanın müstəqil bir dövlət kimi

mövcud olmasının məhz Ümummilli liderin adı ilə bağlı olduğunu bildirmişdir. Azərbaycan dövlətinin memarı Heydər Əliyevin misilsiz xidmətləri barədə danışan Üzeyir Zeynalov dahi liderimizin zəngin dövlətçilik irsinin öyrənilməsi və gənc nəsillərə təbliğ edilməsi baxımından konfransın əhəmiyyətini diqqətə çatdırıb. Daha sonra Ümummilli lider Heydər Əliyevin həyatını əks etdirən videoçarx nümayiş olunub.

Tədbir digər çıxışlarla davam etdirilib. MDU-nun kafedra müdiri, professor, filologiya elmləri doktoru Fərəh Cəlil “Heydər Əliyev siyasəti milli təhsil sistemində tolerantlıq mühitinin formalaşdırılması mənbəyi kimi”, MDU-nun dosenti, filologiya üzrə fəlsəfə doktoru Namaz Manafov “Müasir Azərbaycanın uğur konsepsiyası: Heydər Əliyev irsi”, MDU-nun kafedra müdiri, texnika üzrə fəlsəfə doktoru Ülkər Aşurova “Heydər Əliyevin enerji strategiyası dövlət müstəqilliyimizin qarantıdır”, MDU-nun baş müəllimi, iqtisad üzrə fəlsəfə doktoru Yeganə Məmmədli “Davamlı inkişafın Heydər Əliyev modeli”, MDU-nun baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Aygün Qədirova “Azərbaycanı Zəfər yoluna çıxaran dahi: Heydər Əliyev” mövzularında çıxış ediblər. Məruzələrdə Heydər Əliyevin tarix yazmağı bacaran dünya şöhrətli siyasətçi, yüksək intellektli, dərin analitik düşüncəli və uzaqgörən lider, zəngin və çoxşaxəli idarəetmə təcrübəsi olan dövlət xadimi, bütün həyatını və fəaliyyətini doğma xalqına xidmət, milli maraqlara sədaqət və milli dəyərlərə bağlılıq prinsipləri əsasında quraraq yüksək fədakarlıq və əzmkarlıq nümunəsi ortaya qoyan, güclü siyasi iradəyə və böyük qətiyyətə sahib olan rəhbər kimi siyasi portretindən, ölkəmizin davamlı inkişafında və tarixi qələbəsində Heydər Əliyevin zəngin irsinin misilsiz əhəmiyyətindən bəhs edilib.







**12.Mingəçevir Dövlət Univeristetində (MDU) mühazirə: “20 Yanvar Azərbaycan xalqının qəhrəmanlıq və iftixar tarixi”.**

2025-ci ilin yanvarın 17-də Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Ümumxalq Hüzn Gününə həsr olunmuş “20 Yanvar Azərbaycan xalqının qəhrəmanlıq və İftixar tarixi” mövzusunda mühazirə keçirilib. Müharizə Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə başlayıb.

Mühazirədə giriş sözü ilə çıxış edən Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova xalqımızın qan yaddaşına çevrilən 20 Yanvar faciəsindən 35 il ötməsinə baxmayaraq, günahsız insanlarımıza qarşı törədilən amansız qətliamın eyni acı və kədər hissləri ilə xatırlandığını bildirib. Müstəqillik uğrunda mübarizə tariximizin ən şərəfli səhifələrindən olan 20 Yanvar faciəsi ilə bağlı tarixi həqiqətlərin gənc nəslə çatdırılmasının vacibliyini qeyd edən E.Cəfərova bu məqsədlə universitetdə həyata keçirilən fəaliyyətlərdən danışıb və mühazirənin önəmini diqqətə çatdırıb.

Sonra, Humanitar fənlər kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Vüsalə Mövlayeva məruzə ilə çıxış edib. Məruzədə müstəqillik yolunda xalqın keçdiyi mübarizə yolundan, göstərdiyi əzmkarlıq və fədakarlıq nümunələrindən, 20 Yanvar faciəsinin səbəbləri, qanlı nəticələri və əsas günahkarlarından, ümummilli lider Heydər Əliyevin qırğını törədənlərin cəzalandırılmasını tələb edən cəsarətli addımlarından və faciəyə siyasi qiymətin verilməsindəki tarixi xidmətlərindən bəhs edilib. Vurğulanıb ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə rəşadətli Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanmaqla və əzəli torpaqlarımızı işğaldan azad etməklə şəhidlərin qisasını aldılar. Daha sonra, mühazirədə mövzu ilə bağlı fikir mübadiləsi aparılıb və iştirakçıların sualları cavablandırılıb.







**13.Mingəçevir Dövlət Universitetində (MDU) 20 Yanvar faciəsinin anım gününə həsr olunmuş elmi konfrans keçirilib.**

16 yanvar 2024-cü il tarixində Mingəçevir Dövlət Universitetində 20 Yanvar hadisələrinin 35-ci ildönümünə həsr olunmuş “Azərbaycan dövlətinin müstəqilliyində və

xalqın birliyində yaşayan şərəf və ölməzlik tarixi: 20 Yanvar” mövzusunda elmi konfrans keçirilib.

Tədbir Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçən şəhidlərin xatirəsini bir qəqiqəlik sükutla anılıb.Mingəçevir Dövlət Universitetinin rektoru vəzifəsini icra edən, tədris məsələləri üzrə prorektor Üzeyir Zeynalov 20 Yanvar faciəsinin Azərbaycanın müstəqillik mübarizəsi tarixindəki əhəmiyyətini vurğulayıb və bu hadisələrin milli yaddaşın ayrılmaz hissəsi olduğunu qeyd edib.

Açılış nitqindən sonra 20 Yanvar hadisələrinə aid videoçarx nümayiş etdirilib. Konfransda 20 Yanvar hadisələrinin tarixi və ədəbi əhəmiyyəti ilə bağlı bir sıra maraqlı məruzələr təqdim edilib. MDU-nun müəllimi, tarix üzrə fəlsəfə doktoru Vüsalə Mövlayeva “Qanlı 20 Yanvar: tarixi baxış və tarixi dərs”, MDU-nun baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Pərvin Hüseynova “20 Yanvar faciəsi bədii ədəbiyyatımızda”, MDU-nun müəllimi, AMEA Tarix İnstitutunun doktorantı Xədicə Abdullayeva “Müstəqilliyə çatdıran qəhrəmanlıq və iftixar tarixi: 20 Yanvar” mövzularında çıxış ediblər. Konfransda təqdim olunan məruzələr və müzakirələr iştirakçılara 20 Yanvar hadisələrini daha dərindən anlamaq və gələcək nəsillərə bu əhəmiyyətli tarixi hadisələri ötürmək üçün yeni perspektivlər təqdim edib. Tədbirin sonunda iştirakçılar belə anım tədbirlərinin davamlı olaraq keçirilməsinin vacibliyini vurğulayıb və milli yaddaşın qorunmasının önəmini qeyd ediblər.












**14. 21 fevral Beynəlxalq Ana dili Gününə həsr olunan “Ana dilimiz: milli kimliyimiz!” mövzusunda dəyirmi masa**

2025-ci il fevralın 20-də Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının nəzdində fəaliyyət göstərən “Ədəbiyyat” dərnəyində “Beynəlxalq Ana Dili

Günü"nə həsr olunmuş "Ana dilimiz: milli kimliyimiz!" mövzusunda dəyirmi masa keçirilib. Humanitar fənlər kafedrasının "Ədəbiyyat" dərnəyinin təşkilatçılığı ilə keçirilən seminarda universitetin bir qrup professor-müəllim heyəti, dərnəyə üzv tələbələr iştirak edib. Tədbiri giriş sözü ilə açan Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova "Beynəlxalq Ana Dili Günü" münasibətilə iştirakçıları təbrik edib, beynəlxalq səviyyədə qeyd edilən bu günün əhəmiyyətindən söhbət açıb. Ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin inkişafında göstərdiyi misilsiz xidmətlərdən bəhs edən kafedra müdiri hazırda ana dilimizin qorunması və zənginləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsinin dövlətin daim diqqət mərkəzində olduğunu bildirib. Tədbir açıq elan edildikdən sonra "21 Fevral Beynəlxalq Ana Dili Gününə" həsr edilmiş videoçarx nümayiş etdirilib. Daha sonra dərnək üzvlərindən "Filologiya" ixtisası birinci kurs, Fil 24 qrup tələbələri Aytac Cumayeva "Ana dili mənəvi varlığımızdır", Sevinc Əliyeva "Azərbaycan dilinin beynəlxalq səviyyədə tanıdılması və təbliği, "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üçüncü kurs, AƏ2.2 qrup tələbəsi Emin Abdullayev "Qloballaşma şəraitində Azərbaycan dilinin saflığının qorunmasında gənclərin rolu", "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası birinci kurs, AƏ24.1 qrup tələbəsi Rəvan Abdullayrev "Heydər Əliyevin uğurlu dil siyasəti", "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası birinci kurs, AƏ24.1 qrup tələbəsi Bəyim Sadıqzadə "Ümummilli liderimiz Heydər Əliyevin dil siyasətinin layiqli davamçısı" adlı məruzələrlə çıxış ediblər. Təqdim edilən məruzələr iştirakçılar tərəfindən maraqla qarşılanıb, mövzu çərçivəsində müzakirələr aparılıb. Həmçinin, çıxışlar zamanı tələbələr üçün maarifləndirici təqdimat da nümayiş etdirilib.

Dəyirmi masanın bədii hissəsində dərnək üzvlərindən AƏ23.2 qrup tələbəsi Samirə Məmmədova, AƏ23.1 qrup tələbəsi Fatimə Məmmədova və Fil24 qrup tələbəsi Şəbnəm Əliyeva ana ilinə həsr edilmiş şeirlər səsləndiriblər.

Tədbirin sonunda tələbələrə tövsiyələr verilib və gələcək fəaliyyətlərində uğurlar arzulanıb.

**15. Mingəçevir Dövlət Universitetində Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib**

24 fevral 2025-ci il tarixində Mingəçevir Dövlət Universitetində Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunan "Xocalının qurumayan göz yaşları" adlı anım tədbiri keçirilib. Tədbirdə universitetin akademik heyət üzvləri və tələbələr iştirak edib.

Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Esmira Cəfərova Xocalı faciəsinin tarixini və ona dair əhəmiyyətli məlumatları təqdim edərək, bu faciənin xalqımızın yaddaşında həmişə qalacağını vurğulayıb. Tədbir çərçivəsində Xocalı hadisələrinin dəhşətini və orada baş verən faciələri əks etdirən xüsusi bir videoçarx nümayiş olunub.

Sonra MDU-nun Humanitar fənlər kafedrasının baş müəllimi İlham Məmmədov "Xocalı faciəsini unutmayaq: Tarixi-siyasi təhlil" adlı mühazirə ilə çıxış edib. Mühazirədə Xocalı faciəsinin siyasi, tarixi və insanlıq aspektləri ətraflı şəkildə təhlil olunub. İ. Məmmədov Xocalı qətliamının beynəlxalq səviyyədə daha çox tanınması və bu faciənin dünya ictimaiyyətinə çatdırılması üçün vacib addımların atılmasının zəruriliyini, Xocalı sakini, MDU-nun müəllimi Tahirə Quliyeva isə Xocalı faciəsini XX əsrin ən dəhşətli və qəddarlıqla törədilmiş Xatın, Xirosima faciələri ilə müqayisə edərək, xocalıların qisasının alındığına baxmayaraq, bu faciənin heç vaxt unudulmayacağını vurğulayıb.

Tədbirin sonunda iştirakçılar müzakirələrdə iştirak ediblər. Müzakirələr zamanı Xocalı qətliamı ilə bağlı müxtəlif fikirlər irəli sürülüb, faciənin gələcək nəsillərə düzgün ötürülməsinin və bununla bağlı təhsilin əhəmiyyəti qeyd olunub.

Mingəçevir Dövlət Universiteti bu cür tədbirlərlə Xocalı faciəsini unutmaq və unudulmasına imkan verməmək üçün fəaliyyətlərini davam etdirəcəkdir.

**16. MDU-da Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunan "Xocalı – faciədən doğan intiqam" mövzusunda dəyirmi masa keçirilib**

2025-ci il fevralın 26-da Mingəçevir Dövlət Universitetində Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunan "Xocalı – faciədən doğan intiqam" mövzusunda dəyirmi masa keçirilib.

Universitetin Hümanitar fənlər kafedrasının Tarix Elmi Dərnəyinin təşkilatçılığı ilə keçirilən dəyirmi masada MDU-un bir qrup müəllimi, Təhsil və Mühəndislik fakültələrinin tələbələri iştirak edib .

Əvvəl torpaqlarımızın azadlığı uğrunda canından keçmiş qəhrəman şəhidlərimiz və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış nitqi ilə çıxış edən MDU-un Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova tarixin müxtəlif mərhələlərində ermənilərin xalqımıza qarşı ən qəddar üsullardan istifadə etməklə törətdikləri kütləvi qırğınlar və soyqırımlar barədə danışaraq Xocalı faciəsini insanlığa qarşı ən ağır cinayət kimi səciyyələndirdi. O, həmçinin bildirib ki, Xocalı soyqırımının tanınması, beynəlxalq aləmdə bu cinayətə hüquqi qiymətin verilməsi və Xocalı soyqırımını törədən şəxslərin mühakimə olunması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biridir.

Açılış nitqindən sonra Xocalı soyqırımına həsr olunmuş videoçarx nümayiş etdirilib.

Dəyirmi masada iştirak edən Xocalı soyqırımının şahidi Humanitar Fənlər kafedrasının müəllimi Tahirə Quliyeva hadisə ilə bağlı acı xatirələrini iştirakçılarla bölüşüb.

Sonra dəyirmi masanın proqramına uyğun olaraq tələbələr Xocalı soyqırımını tarixi-siyasi aspektdən təhlilindən ibarət – Təhsil fakültəsinin tələbələrindən Mehriban Qarayeva "Xocalı soyqırımına aparan yola siyasi-tarixi baxış", Aytən Mirzəlizadə "Xocalı soyqırımı XX əsrin ən dəhşətli faciələrindəndir", Sənan Mehdiyev "Xocalı soyqırımının hüquqi təhlili", Tamella Qurbanova "Ümummilli Lider Heydər Əliyev tərəfindən Xocalı soyqırımına siyasi qiymətin verilməsi", Nahidə Yusifova "Tarixi qələbəmizlə Xocalı qətliamının günahsız qurbanlarının qisası alındı", İlahə İbrahimova "Xocalıya, Qarabağa "Böyük Qayıdış" Azərbaycan dövləti üçün prioritet məsələdir" mövzularında məruzələrlə çıxış ediblər.

Sonda Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fondunun müdiri Şəfa Mövsumovun "Xocalı faciəsi bizim qan yaddaşımızdır" adlı məruzəsi isə video formatda dəyirmi masa iştirakçılarına təqdim olunub.